Building a better working world

Aprel 2023

# Hüquq məsələləri üzrə bülleten

Azərbaycan Respublikası qanunvericiliyində baş vermiş dəyişikliklərə dair yenilənmiş bələdçi




Bu buraxılışda aşağıdakı məsələlərin icmalını diqqətinizə çatdırmaq istərdik:

- Mülki Məcəlləyə dəyişikliklər
- Kredit təşkilatları üçün əlavə qaydalar
- İstismar olunan minik avtomobillərinin idxalına yeni məhdudiyyətlər
- Beynəlxalq avtomobil daşımaları ilə bağlı qanunvericilikdə dəyişikliklər
- Əməyin mühafizəsi üçün işçilərdən xərc tələb etməyən tədbirlər
- Mərkəzi Bank: Faiz dəhlizinin yeni parametrləri
- İdxal rüsumlarından azad olunan yeni mallar

## Mülki Məcəlləyə dəyişikliklər

*24 fevral 2023-cü il tarixində “Mülki Məcəlləyə dəyşikliklər edilməsi haqqında” Qanun qəbul edilmişdir.*

Dəyişikliyə əsasən, Mülki Məcəllənin 13 maddəsi dəyişdirilmiş və 37-ci fəsli (“Borc”) yeni redaksiyada verilmişdir.

Dəyişikliklər iki istiqamətdə edilmişdir:

(i) Borc alan və istehlakçıların hüquqlarının daha yaxşı mühafizəsi üçün kredit müqaviləsini tənzimləyən normalar təkmilləşdirilmişdir. Ümumilikdə, dəyişiklik aşağıdakı yenilikləri özündə ehtiva edir:

- Borc verən öz nizamnamə kapitalındakı payın (səhmin) alınması məqsədilə borc verə bilməz. Əlavə olaraq, borc verən qarşısında borc öhdəliyinin icrasının təminatı kimi onun nizamnamə kapitalında olan payları (səhmləri) çıxış edə bilməz. Bu addımlar payların (səhmlərin) geri alışının dolayı olaraq borc alan tərəfindən maliyyələşməsinin qarşısını almaq məqsədi güdür.
- Borc müqaviləsi predmetinin (pul və ya digər əvəz edilən əşyalar) verildiyi və qaytarıldığı gün anlayışı ətraflı tənzimlənmişdir;
- Faizlər bütün kredit məbləğinə yox, sadəcə ödəmə tarixinə qədər ödənilməmiş əsas borc qalığının məbləğinə əsasən hesablanacaq;
- Yalnız müvafiq qaydada kredit vermək səlahiyyətinə malik olanl şəxslər kommersiya məqsədləri üçün müntəzəm olaraq borc verən kimi çıxış edə və qeyri-məhdud sayda şəxslərə borc verə bilərlər.

- Yeni kredit müqaviləsi növü – istehlak krediti müqaviləsi – müəyyən edilmişdir. Bu növ müqavilənin məqsədi istehlakçıları müdafiə etmək üçün xüsusi tədbirlər (məsələn, anlaşılmazlıqların qarşısını almaq üçün ilkin məlumat sistemi, qeyri-sabit faizlərin qadağan edilməsi, bütün qeyri-müəyyənliklərin istehlakçının xeyrinə şərh edilməsi və s.) tətbiq etməkdir.

(ii) Texnologiyanın inkişafı nəticəsində yaranan yeniliklərə cavab. Bu sahədə Qanun aşağıdakı dəyişikləri əhatə edir:

- Əqd (1) onun məzmununu dəyişilməz formada maddi daşıyıcıda əks etdirməyə imkan verən (2) elektron və ya digər texniki vasitələrin köməyi ilə bağlanıldıqda da yazılı formaya riayət edilmiş hesab edilir. İradə ifadəsini dürüst müəyyən etməyə imkan verən hər hansı üsuldan istifadə olunmuşdursa, imza tələbi yerinə yetirilmiş hesab edilir. Qanunla, digər hüquqi aktlarla və ya tərəflərin razılaşması ilə şəxsi dəqiq müəyyən etməyə imkan verən xüsusi üsul (üsullar) müəyyənləşdirilə bilər.

- İstehlak krediti müqaviləsi yazılı formada kağız və ya digər davamlı daşıyıcıda tərtib edilə bilər.

Qanun 1 oktyabr 2023-cü il tarixində qüvvəyə minəcək.

## Kredit təşkilatları üçün əlavə qaydalar

*24 fevral 2023-cü ildə "Kredit təşkilatları", "Banklar", "Bank olmayan kredit təşkilatları" haqqında Azərbaycan Respublikası qanunlarına dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanunu (bundan sonra "Dəyişiklik") qəbul edilmişdir.*

Dəyişikliyə əsasən kredit təşkilatları tərəfindən kreditlər verilərkən və kredit təşkilatlarının üzvləri tərəfindən kreditlərin alınması (qaytarılması) zamanı Mülki Məcəllənin tələblərinin nəzərə alınması məcburidir.

Dəyişiklik banklar və onların müştəriləri arasında münasibətlərin hüquqi tənzimlənməsinə dair yeni qayda nəzərdə tutur. Mülki Məcəllədə başqa hal nəzərdə tutulmayıbsa, kreditin verilməsi ilə əlaqədar yaranan faizlərin və (və ya) digər ödənişlərin məbləği və ya hesablanması qaydası tərəflərin razılığı ilə müəyyən edilir. Faizlər, o cümlədən gecikdirilmiş ödənişlərə görə faizlər və əlavə haqlar yalnız ödəmə tarixinə qədər ödənilməmiş əsas borc qalığının məbləğinə hesablanır.

Həmçinin, dəyişikliyə əsasən, Bank Olmayan Kredit Təşkilatları ("BOKT") tərəfindən kreditlərin verilməsi üçün bağlanmış müqavilənin müddəaları Mülki Məcəllənin tələblərinə uyğun olmalıdır.

Dəyişiklik 31 mart 2023-cü ildə qüvvəyə minib.

## İstismar olunan minik avtomobillərinin idxalına yeni məhdudiyyətlər

*29 mart 2023-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İstismar olunan minik avtomobillərinin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsinin məhdudlaşdırılması haqqında" 94 nömrəli Qərarı (bundan sonra "Qərar") qəbul edilmişdir.*

Qərar insanların həyat və sağlamlığının, eləcə də ətraf mühitin qorunması, avtonəqliyyat vasitələrindən atılan zərərli maddələrin azaldılması, ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədi daşıyır. Müvafiq olaraq, zavoddan buraxılış tarixinə əsasən istismar müddəti 10 (on) ildən artıq olan minik avtomobillərinin Azərbaycan ərazisinə idxalı məhdudlaşdırılacaq. Bu məhdudiyyət nadir (raritet) və müvəqqəti idxal olunan minik avtomobillərinə şamil edilmir.

Qərar 28 aprel 2023-cü ildə qüvvəyə minəcək.

## Beynəlxalq avtomobil daşımaları ilə bağlı qanunvericilikdə dəyişikliklər

*24 fevral 2023-cü ildə Gömrük Məcəlləsinə və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər (bundan sonra "Dəyişikliklər") qəbul edilib.*

Dəyişikliyə əsasən, beynəlxalq avtomobil daşımalarını həyata keçirən avtonəqliyyat vasitələrinə dövlət sərhədinin buraxılış məntəqələrində icazə blanklarının verilməsi gömrük orqanlarının vəzifələri siyahısından çıxarılıb. Həmçinin, belə icazəyə görə dövlət rüsumunun ödənilməsini müəyyən edən maddə ləğv edilib.

Müvafiq olaraq, Azərbaycan Respublikasının ərazisinə giriş/çıxış və ya tranzit keçid zamanı aşağıdakı hallarda dövlət rüsumu tutulmayacaq:

- Beynəlxalq avtomobil daşımalarına aid Azərbaycan Respublikası ilə Hökumətlərarası Sazişi olan xarici dövlətlərin yük və sərnişin avtomobil daşıyıcıları üçün giriş-çıxış və tranzit keçid kvota ilə müəyyən edildiyindən artıq olduqda;
- Beynəlxalq avtomobil daşımalarına aid Azərbaycan Respublikası ilə Hökumətlərarası Sazişi olmayan yük və sərnişin avtomobil daşıyıcıları üçün;
- Üçüncü ölkəyə və üçüncü ölkədən daşımalar üçün;
- Xarici dövlətlərdə qeydiyyatda olan avtomaşınların Azərbaycan Respublikası ərazisində yüklənməsinə görə;
- Xarici dövlətlərdə qeydiyyatda olan nəqliyyat vasitələrinin Azərbaycan Respublikası ərazisinə yüksüz daxil olması üçün;
- İri tonnajlı, xarici dövlətlərdə qeydiyyatda olan yük avtonəqliyyat vasitələrinin Bakı, Sumqayıt və Gəncə şəhərlərinə daxil olması üçün;
- Dövlətlərarası sazişləri pozan xarici avtomobil daşıyıcıları Azərbaycan Respublikası ərazisindən çıxdıqda.

Dəyişiklik 2023-cü il martın 1-dən qüvvəyə minib.

## Əməyin mühafizəsi üçün işçilərdən xərc tələb etməyən tədbirlər

*24 fevral 2023-cü ildə Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Qanun ("Dəyişiklik") qəbul edilib.*

Dəyişikliyə əsasən, işçilər əməyin mühafizəsi tədbirlərinin maliyyələşdirilməsi ilə bağlı heç bir xərc çəkmirlər.

Dəyişikliyə qədər, bu məsələ Əmək Məcəlləsində dəqiq göstərilmirdi.

Dəyişiklik 2023-cü il martın 10-da qüvvəyə minib.

## Mərkəzi Bank: Faiz dəhlizinin yeni parametrləri

*29 mart 2023-cü ildə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin "Faiz dəhlizinin parametrləri haqqında" Qərarı ("Qərar") qəbul edilib.*

Qərarla faiz dəhlizinin uçot dərəcəsi (8,75%), aşağı həddi (7%) və yuxarı həddi (9,75%) qaldırılıb. Qərar inflyasiyanın daxili və xarici mühitində müşahidə olunan risklərə reaksiya olaraq Mərkəzi Bankın anti-inflyasiya yönümlü pul siyasətini davam etdirməsinə əsaslanaraq qəbul edilib. Qərarın məqsədi inflyasiyanın azaldılması və pul-kredit siyasətinin normallaşdırılmasıdır.

Qərar 30 mart 2023-cü ildən qüvvəyə minib. Pul siyasəti ilə bağlı növbəti qərar barədə məlumat 3 may 2023-cü ildə ictimaiyyətə açıqlanacaq və bununla bağlı mətbuat konfransı keçiriləcək.

## İdxal rüsumlarından azad olunan yeni mallar

*15 aprel, 2023-cü ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələrinə dəyişiklik edilməsinə dair qərar ("Qərar") qəbul etmişdir.*

Qərara əsasən, 270 mal üçün idxal gömrük rüsumunun dərəcəsi 31 dekabr 2030-cu il tarixinədək 0%-ə endirilmişdir. Bu siyahıya bəzi qida və təsərrüfat məhsulları da olmaqla bir sıra digər mallar daxildir. Dəyişiklikdən öncə, bu növ mallar üçün idxal gömrük rüsumunun dərəcəsi 5% və 15% idi.

Qərar 1 yanvar 2024-cü ildə qüvvəyə minəcək.

Əlaqə üçün:

Biz hazırkı icmalın sizin üçün faydalı olmasına ümid edirik. Daha ətraflı məlumat üçün aşağıdakı mütəxəssislər ilə əlaqə saxlamağınız xahiş olunur:




Arzu Hacıyeva
Partnyor, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
arzu.hajiyeva@az.ey.com





Məmməd Balacanov
Baş Menecer, Hüquq xidmətinin rəhbəri, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
mammad.balajanov@az.ey.com


## EY | Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti, müştərilər, əməkdaşlar və bütövlükdə cəmiyyət üçün uzunmüddətli dəyərin yaradılmasına və kapital bazarlarına inamın artırılmasına töhfə verməklə daha yaxşı iş dünyasının qurulmasına çalışır.
EY şirkətinin çoxprofilli komandaları dünyanın 150-dən çox ölkəsində təmsil olunur. İnformasiya və texnologiyalardan istifadə edərək əməkdaşlarımız məlumatların doğruluğunu təsdiq etməklə etimadı təmin edir və müştərilərə fəaliyyətlərini uğurla inkişaf və transformasiya etdirməyə kömək edirlər.
EY şirkətinin audit, konsaltinq, hüquq, strategiya, vergi və sövdələşmələr sahəsində mütəxəssisləri bu gün dünyamızın üzləşdiyi mürəkkəb məsələlərə yeni cavablar tapmaq üçün düzgün suallar verirlər.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Qlobal Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkəti tərəfindən fərdi məlumatların toplanması və istifadə edilməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com

EY, Qafqaz və Mərkəzi Asiyadan olan şirkətlərlə əməkdaşlıq edir və onlara biznes məqsədlərinə çatmağa köməklik göstərir. Almatı, Bakı, Bişkek, Nur-Sultan, Daşkənd, Tbilisi və digər şəhərlərdə yerləşən 8 ofisimizdə 1300-dən çox mütəxəssis çalışır.


© 2023-cü il Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Bütün hüquqlar qorunur.

Hazırkı nəşr diqqət ilə hazırlanmışdır, lakin ona daxil edilmiş məlumat zəruri olaraq qısa xülasə şəklində təqdim edilir və buna görə də ümumi xarakter daşıyır və ətraflı araşdırmanın və ya peşəkar rəyin əvəzi kimi nəzərdə tutulmamışdır. “EY” hazırkı nəşrə daxil edilmiş məlumata əsaslanaraq hərəkət etmiş və ya etməmiş hər hansı şəxsə dəyən ziyana görə heç bir məsuliyyəti üzərinə götürmür. Hər hansı xüsusi hal ilə bağlı olaraq istinad müvafiq məsləhətçiyə edilməlidir.


ey.com/az